**Xəzər regionunda neft-qaz sahəsinin və enerji sektorunun ən mötəbər tədbiri olan "Bakı Enerji Həftəsi" 27-ci Beynəlxalq "Xəzər Neft və Qaz" sərgisini, 10-cu Yubiley Xəzər Beynəlxalq Energetika və Alternativ Enerji" sərgisini və Xəzər Neft və Qaz Konfransının xələfi olan "Bakı Enerji Forumu"nu özündə birləşdirir. Bakı Enerji Həftəsi Azərbaycan hökumətinin uğurla mübarizə apardığı pandemiyanın yaratdığı ikiillik fasilədən sonra yenidən təşkil olunur. Həm canlı görüşlər, həm də bölgənin sənaye liderləri ilə canlı dialoq sərgi və forumun əhəmiyyətini daha da artırır. Builki Bakı Enerji Həftəsi daha dayanıqlı və təhlükəsiz enerji güclərinin yaradılması sahəsində yeni əməkdaşlıq üçün beynəlxalq şirkətləri bir araya gətirir. Hər il baş tutan Xəzər neft və qaz sərgisi neft, qaz və energetika sahəsində aparıcı peşəkarların görüş yerinə çevrilib və burada gələcək əməkdaşlığa dair çoxlu sayda memorandumlar, eləcə də saziş və müqavilələr imzalanır.**




# Azərbaycan Transxəzər əməkdaşlığının nəhəng potensialının reallaşdırılmasında mühüm rol oynayır

Qeyd edək ki, mötəbər beynəlxalq platforma və regionda neft-qaz sənayesinin əsas tədbirinə çevrilən "Xəzər Neft və Qaz" sərgisi hər il Xəzər regionunun əsas neft-qaz layihələrini müzakirə etmək və enerji təhlükəsizliyini təmin etmək üçün ən yüksək səviyyəli rəhbərləri bir araya gətirir. Azərbaycanın neft strategiyasında özünəməxsus yer tutan bu sərgi 1994-2003-cü illərdə, ümumilli lider Heydər Əliyevin hakimiyyəti dövründə baş tutub. İlk sərgi 1994-cü ilin sentyabr ayında Xəzər hövzəsində karbohidrogen ehtiyatlarının genişmiqyaslı işlənilməsi üzrə əsas istiqamətləri müəyyən edən və respublikanın neft tarixində yeni dövrün əsasını qoyan "Əsrin müqaviləsi"nin imzalanması ərəfəsində keçirilib. Həmin dövrdə ümummilli lider Heydər Əliyev bu sərgini "dünya neft-qaz şirkətlərini ölkənin neftqaz sahəsinin inkişafına cəlb etmək üçün münasib platforma" hesab edərək, Azərbaycanda neft-qaz sənayesi üzrə ilk ixtisaslaşdırılmış sərginin keçirilməsi təşəbbüsünü dəstəkləyib və o vaxtdan etibarən, "Xəzər Neft və Qaz" sərgisi neft, qaz və energetika sahəsinin aparıcı mütəxəssislərinin görüşdüyü və memorandumların, habelə gələcək əməkdaşlığa dair saziş və müqavilələrin imzalandığı meydançaya çevrilib. Burada neft-qaz hasilatı, maşınqayırma sənayesi, geologiya, bütün sahələr üzrə ixtisaslaşmış şirkətlər öz pavilyonları ilə iştirak edir. Bundan başqa, eyni zamanda sərgi çərçivəsində elektroenergetika və alternativ enerji sahəsində fəaliyyət göstərən şirkətlər də təmsil olunur.

I Beynəlxalq Sərgi 1994-cü il 24 may tarixində keçirilib. Ümummilli lider Heydər Əliyev tədbirdə yaxından iştirak edib. Sərgi ilə yanaşı, keçirilməsi nəzərdə tutulan konfransa da mühüm əhəmiyyət verilirdi. Dünyanın 20 ölkəsindən 180-dək firmanın iştirak etməsi sərginin əhəmiyyətini daha da artırıb. Sərgi iştirakçıları, tamaşaçılar neft hasilatı, bu prosesin texnika və texnologiyası sahəsində dünyanın iri neft şirkətlərinin əldə etdikləri bütün nailiyyətlər, eyni zamanda Azərbaycan neft sənayesinin tarixi, onun nailiyyətləri ilə də tanış olublar. Sərginin keçirilməyə başladığı tarixdən etibarən Azərbaycanda bu sahə yeni mərhələyə qədəm qoyub. Azərbaycan dövlətinin həyata keçirdiyi neft strategiyası, cəsarətli siyasəti və əməli tədbirləri təkcə ölkəmizə yox, bütün Xəzər dənizi hövzəsinin böyük neft-qaz sərvətlərinin Xəzəryanı dövlətlər tərəfindən istifadə edilməsinə, dünyanın böyük şirkətlərinin Xəzərin başqa sektorlarındakı neft və qaz yataqlarına da maraq göstərməsinə səbəb olub.

Ümummilli lider Heydər Əliyevin dövründə ardıcıl və sistemli şəkildə həyata keçirilən bu sərgilər sonrakı mərhələdə dövlət başçısı İlham Əliyevin neft-qaz siyasətində prioritetə çevrilib. İlham Əliyevin rəhbərliyi dövründə keçirilən ilk sərgi - XI Beynəlxalq "Xəzər neft, qaz, neftayırma və neft kimyası" sərgisi 2004-cü il 2 iyun tarixində baş tutub. Sərgidə Türkiyənin energetika və təbii ehtiyatlar naziri, Norveçin neft və energetika üzrə dövlət katibi, Rusiya xarici işlər nazirinin müavini, Rusiya Prezidentinin Xəzər dənizinin hüquqi statusunun tənzimlənməsi üzrə xüsusi nümayəndəsi, ABŞ Dövlət Departamentinin Xəzər hövzəsinin enerji ehtiyatları üzrə xüsusi nümayəndəsi, Gürcüstanın yanacaq və energetika nazirinin müavini, Böyük Britaniya Baş nazirinin biznes imkanlarının inkişafı üzrə xüsusi təmsilçisi və bir çox xarici şirkət nümayəndələri iştirak edib. Növbəti illərdə - 7-10 iyun 2005-ci il, 6-9 iyun 2006-cı il, 5-8 iyun 2007-ci il, 3-6 iyun 2008-ci il, 2-5 iyun 2009-cu ildə XII, XIII, XIV, XV, XVI beynəlxalq "Xəzər neft, qaz, neftayırma və neft kimyası" sərgiləri həyata keçirilib. Nəhayət, 2019-cu il 29 may - 1 iyun tarixlərində Bakı Ekspo Mərkəzində Xəzəryanı regionun energetika sektoru üzrə ən irimiqyaslı tədbiri - 26-cı Beynəlxalq "Xəzər Neft və Qaz" sərgisi açılıb. Sərgidə 34 ölkədən 301 şirkət iştirak edib. Neft-qaz sərgisinin açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev iştirak edib. Dövlət başçısı bildirib ki, Azərbaycan iri həcmdə neft və qaz ixrac edən ölkələr arasında da layiqli yer tutur. "Ölkəmiz bu gün beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınır. Biz üzərimizə götürdüyümüz öhdəlikləri layiqincə yerinə yetirməklə yanaşı, xarici sərmayədarlar üçün də əlverişli şərait yaratmışıq. Dünya neft sənayesinin inkişafında xüsusi mövqeyi ilə seçilən Azərbaycan, həmçinin müxtəlif ölkələrdə genişmiqyaslı investisiya layihələri həyata keçirməkdədir", - deyə qeyd edib.

Prezident İlham Əliyev "Bakı Enerji Həftəsi"nin iştirakçılarına məktub ünvanlayıb. Dövlət başçısı bildirib ki, Azərbaycanda enerji təhlükəsizliyinə, xüsusilə "yaşıl enerji" siyasətinə münasibətdə uzunmüddətli hədəflər müəyyən edilmişdir. Enerji sahəsində açıq, şəffaf, biznes maraqlarına xidmət edən və nəticələrə hesablanmış əməkdaşlıq və qarşılıqlı dəstək daimi prinsiplərimizdir. 2030-cu ilədək olan dövrdə "yaşıl artım" ölkəsinə çevrilməyi və təmiz ətraf mühitə nail olmağı sosial-iqtisadi inkişafa dair milli prioritetlərdən biri kimi müəyyənləşdirmişik. Belə bir siyasət regionda enerji sahəsində uğurlu transformasiya üçün mükəmməl bünövrəni təmin edəcəkdir. Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Baydenin Prezident İlham Əliyevə ünvanladığı məktubun mətnində deyilir: "Amerika Birləşmiş Ştatları və Azərbaycan Respublikası arasında qurulmuş 30 illik diplomatik münasibətlər dövründə biz transmilli təhlükələrlə mübarizə, enerji təhlükəsizliyinin gücləndirilməsi, ikitərəfli ticarət və sərmayələrin təşviqi məsələlərində güclü tərəfdaş olmuşuq. Bakıda Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinə evsahibliyi etdiyiniz vaxtda Sizi əmin etmək istəyirəm ki, Amerika Birləşmiş Ştatları Azərbaycanın sadiq tərəfdaşı olmaqda davam edir". Eyni zamanda ABŞ prezidenti qeyd edib ki, enerji təhlükəsizliyi ilə bağlı məqsədlərimizə çatmaq üçün şaxələndirmə heç vaxt olmadığı qədər əhəmiyyətlidir və Azərbaycan bu məqsədə nail olmaq üçün regional səylərdə əsas rol oynamışdır. Azərbaycan həm də regional və qlobal bazarların sabitləşdirilməsi baxımından Transxəzər əməkdaşlığının nəhəng potensialının reallaşdırılmasında mühüm əhəmiyyətə malikdir.

Azərbaycan və ABŞ arasında əlaqələrin müxtəlif sahələri, o cümlədən qanunun aliliyi, iqtisadiyyat, enerji, təhlükəsizlik sahələrini əhatə edir. ABŞ prezidenti Azərbaycanın tam potensialına nail olunması, o cümlədən şaxələndirilmiş iqtisadiyyatın təşviqi, bərpaolunan enerji mənbələrinə investisiyaların yatırılması ilə iqlim dəyişikliyinə qarşı mübarizədə qlobal məqsədlərə töhfə verməsini xüsusi qeyd edir. Co Baydenin məktubunda mühüm diqqətçəkən məqam odur ki, qanunun aliliyi və hesabatlılığın möhkəmləndirilməsi, Azərbaycan xalqının yaşayış standartlarının yüksəldilməsi istiqamətində Azərbaycan Prezidentinin davamlı addımlarını alqışlayır. Co Bayden hər iki dövlət arasında mövcud yüksək səviyyəli əlaqələr fonunda əminliklə vurğulayır ki, Amerika Birləşmiş Ştatları davamlı tərəfdaşlıq və əməkdaşlığa sadiqdir.

"Bakı Enerji Həftəsi" enerji konteksində çox önəmli vaxtda keçirilir". Avropa Komissiyasının Enerji siyasəti, strategiya və koordinasiya üzrə direktoru Kristina Lobillo Borrero vurğulayıb ki, Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi baxımından Avropa İttifaqı üçün çox önəmlidir. Aİ enerji diversifikasiyasına dəstək verir. Borrero eyni zamanda qeyd edib ki, qurum yaşıl enerji sahəsində Azərbaycanla əməkdaşlıq etmək niyyətindədir. Ölkəmizdə mövcud olan sabitlik, iqtisadi inkişaf, müasir infrastruktur, əlverişli biznes mühiti və böyük enerji potensialı bərpaolunan enerji növlərinin istehsalı və ixracı sahəsində geniş perspektivlər yaratmışdır. Azərbaycan enerji sahəsində böyük təcrübəsi olan şirkətlərlə birlikdə bərpaolunan yeni enerji güclərinin yaradılmasına hədəflənən iri layihələrin icrasına başlayıb. Artıq 855 meqavat gücündə yeni generasiya gücləri yaradılması sahəsində mühüm nailiyyətə imza atılıb. Bu, beynəlxalq bazarlarda yeni enerji resurslarının etibarlı təchizatçısı kimi Azərbaycanın mövqeyini daha da artırır və onu gücləndirir.

Azərbaycan Prezidenti İlham Əliyev "Bakı Enerji Həftəsi" ilə bağlı deyib: "Azərbaycan, uzun müddətdir, belə qlobal əhəmiyyətli tədbirə evsahibliyi edir. İnanıram ki, özünün çoxillik təcrübəsi sayəsində sərgi və forumunuz aktual mövzulu dolğun məruzələrlə, müzakirə və fikir mübadilələri ilə qarşılıqlı anlaşma mühitində geniş iqtisadi əlaqələrimiz üçün yeni üfüqlər açacaq və səmərəli əməkdaşlığa töhfələr verəcəkdir".

**M.MUSTAFAYEV,**
**"Respublika".**